# Milli-mənəvi dəyərlərə sadiqlik nümunəsi



**Milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılması bütün dövrlərdə öz aktuallığını qoruyub saxlayan vacib məsələlərdən biridir. Çünki bu dəyərlərin əsrlər boyu xalqımızın formalaşmasında, inkişafında böyük təsiri olduğu kimi, dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Bu gün milli dəyərlərimiz xalq tərəfindən dövlətin himayəsi altında qorunur, daha da inkişaf etdirilir. Bu mənada Azərbaycan öz milli mədəniyyəti, mənəvi dəyərləri, tarixi keçmişi, adət-ənənələri ilə fəxr etməyə layiq az sayda dövlətlərdən biridir.**

Milli-mənəvi dəyərlərin, mədəni sərvətlərin insanın mənəvi tərbiyəsində çox əhəmiyyətli rolu var. Dini inanclar da burada mühüm yer tutur. Din istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz bir hissəsini təşkil edib və insanlar tərəfindən doğru dərk edildiyi zaman bu dəyərlərin zəmanətçisinə çevrilib. Dünyanın ən kamil dinlərindən olan İslam da təkcə din kimi yayılmayıb, həm də əsrlərdir ki, istər Şərq, istərsə də Qərb mədəniyyətinə ideya-fəlsəfi təsir göstərən amil kimi aktual olub. Hələ ötən əsrin əvvəllərində ziyalılarımız gələcək inkişaf istiqaməti kimi türkçülük və müasirliklə yanaşı, islamçılıq prinsipini də tövsiyə edib.

Bu gün müstəqil Azərbaycan hüquqi, demokratik və dünyəvi dövlətdir. Dinin dövlətdən ayrı olmasına baxmayaraq, dövlət-din münasibətləri çox möhkəmdir və sağlam təməllər üzərində qurulub. İslami və digər milli-mənəvi dəyərlərimizə dövlətçilik mövqeyindən yanaşma Azərbaycan xalqının milli və dövlət ideologiyası olan azərbaycançılıq ideologiyasının əsas şərtlərindən biri kimi qəbul edilir. Bu ideologiyanın müəllifi olan ulu öndər Heydər Əliyev deyib: *"Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır. Və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".*

Bu mənada ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik dövrü təkcə ölkənin siyasi, sosial-iqtisadi, mədəni böhrandan qurtuluşu, demokratik islahatların, hüquqi dövlət quruculuğu proseslərinin uğurla həyata keçirilməsi ilə xarakterik olmadı. Cəmiyyətin milli-mənəvi dəyərlərimizə, o cümlədən İslama münasibətinin düzgün və sağlam əsaslarla formalaşdırılmasının əsası da məhz bu dövrdə qoyuldu. Heydər Əliyev ölkəmizdə hüquqi və dünyəvi dövlət quruculuğunun əsasını qoymaqla yanaşı, müqəddəs dinimizə, bütün mənəvi dəyərlərə çox həssaslıqla yanaşır, xalqımızın mental keyfiyyətlərini hər şeydən uca tuturdu. Ulu öndər insanlara cürbəcür fanatizm əhvali-ruhiyyəsinə qapılmamağı, tarixin sınaqlarından keçmiş, yüksək mədəniyyəti və mənəviyyatı əks etdirən bəşəri dəyərləri tövsiyə edirdi.

Məhz Heydər Əliyevin əsasını qoyduğu sağlam dövlət-din münasibətlərinin nəticəsi olaraq bu gün dünyanın bəzi ölkələrində olduğu kimi, İslam dininin alətə çevrilərək gözdən salınmasına imkan verilmədi. Ölkəmizdə bu sahədə həyata keçirilən siyasət, dövlət-din münasibətlərinin Azərbaycan modeli xalqın və dövlətin maraqları üzərində qurularaq özünün mənəvi saflığı ilə bütün ziyanlı ideologiyaların, arzuolunmaz dini-siyasi məqsədlərin qarşısında sipər oldu. Bu siyasətin uğurlu nəticələri sağlam cəmiyyətlə dövlətçiliyimizin sütunlarını daha da sarsılmaz etdi.

Azərbaycan həm də dini baxımdan həmişə tolerant diyar olub. Xalqımız tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, bu gün bütün dünyada qəbul olunan tolerantlığın Azərbaycan nümunəsi məhz Heydər Əliyevin xidmətləri sayəsində formalaşdı. Bütün bunlar isə Azərbaycanın Qərb və Şərq arasında ortaq təmas, sivilizasiyalararası dialoq və humanitar forum məkanına çevrilməsindən ötrü ictimai-siyasi, elmi-mədəni və mənəvi zəmin yaratdı.

Xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi, ölkəmizdə dövlət və din arasında anlaşmanın bütün dünya üçün parlaq bir örnəyinin yaradılması bu gün Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm nailiyyətləri sırasında yer alır. Bütün bunlar dünyada İslam həmrəyliyinin gücləndirilməsinə, beynəlxalq səviyyədə İslam dəyərlərinin müdafiəsinə böyük töhfə verir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmiz tolerantlıq, multikulturalizm və dini maarifləndirmə ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev tarixi-mədəni irsimizin yaşadılmasına və milli-mənəvi dəyərlərimizin dirçəldilməsinə qayğı ilə yanaşaraq bu məqsədlə son 12 ildə dini ziyarətgahların əsaslı təmirinə və yenidən qurulmasına böyük diqqət ayırıb. Bunun nəticəsidir ki, Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilib. Eramızın 743-cü ilində inşa olunan və Cənubi Qafqazda, eləcə də Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun diqqət və qayğısı sayəsində əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilib. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli-mənəvi dünyasına daha çox bağlı olsun.

2014-cü ilin dekabrında isə Bakıda Azərbaycanın ən böyük məscidi olan Heydər Məscid-Kompleksi istifadəyə verilib. Prezident İlham Əliyevin tapşırığı ilə tikintisinə 2012-ci ilin sentyabr ayında başlanılan məscid 12 min kvadratmetr sahədə salınıb. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib. Ornamentlərin zənginliyi fasadda xüsusi arxitektura harmoniyası yaradıb. Burada 95 metr hündürlüyündə dörd minarə inşa olunub. Məscidin daxilində xüsusi bəzək elementlərindən istifadə edilib, günbəzin kənarlarına Quran ayələri yazılıb. 55 metr hündürlüyündə olan baş günbəz, o cümlədən hündürlüyü 35 metr olan ikinci günbəz məscidin daxilinə xüsusi gözəllik verir. Prezident İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi olaraq buraya gələrək görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib, məscidin açılışında ailəsi ilə bərabər iştirak edib.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Gəncədəki tarixi memarlıq abidəsi - xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" dini-mədəniyyət kompleksində təmir-bərpa işləri aparılıb. Bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Türbə sonralar ziyarətgaha çevrilib və onun ətrafında müxtəlif binalar inşa edilib. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib. "İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub.

Prezident İlham Əliyev "İmamzadə" kompleksində təmir və yenidənqurma işlərini hər zaman diqqətdə saxlayıb, üç dəfə bu kompleksə gələrək tapşırıq və tövsiyələrini verib. Dövlət başçısının sərəncamı ilə müxtəlif illərdə Prezidentin Ehtiyat Fondundan kompleksin təmir-bərpa işlərinə ümumilikdə 26 milyon manat vəsait ayrılıb. İnsanların inam və inanc yeri kimi üz tutduğu bu məbəd məhz dövlət başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.

Fevralın 17-də Gəncəyə səfər edən Prezident İlham Əliyev "İmamzadə" dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub. "İmamzadə"ni bütün müsəlman aləminin qiymətli, dəyərli abidəsi adlandıran dövlət başçısı deyib: *"Azərbaycan xalqı əsrlər boyu ictimai-siyasi quruluşdan asılı olmayaraq bu abidəni qorumuşdur, qoruyur və bundan sonra da qoruyacaqdır. "İmamzadə" bizim milli sərvətimizdir. Bir neçə il bundan əvvəl dini mədəniyyət abidəsinin yenidən qurulması və əsaslı təmiri üçün mənim tərəfimdən müvafiq sərəncam imzalanmışdır, işlər başlanmışdır və bu işlər bu gün göz qabağındadır. Yeni məscid, mərasim zalı, inzibati binalar tikilmişdir, ərazi genişləndirilmişdir. Bu, Azərbaycan dövlətinin öz milli, dini dəyərlərinə göstərdiyi münasibətdir. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, yenidən tikilir. Müstəqillik dövründə 2 minə yaxın məscid, digər dinlərin məbədləri tikilmişdir. Pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri həyata keçirilmişdir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. 2014-cü ildə ölkəmizin ən böyük məscidi - Heydər məscidi tikilmişdir ki, bu da müsəlman aləminin mühüm tarixi, memarlıq və dini abidəsidir".*

Ölkədə son illər həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri müqəddəs dini ocaqlarımızdan da yan ötməyib. Onların mühafizəsini daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin sərəncamlarına əsasən, qədim tarixi-dini abidələrin, ziyarətgahların bərpası ilə bağlı görülən silsilə tədbirlər ölkəmizdə milli-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Bu, həm də Azərbaycan dövlətinin mütərəqqi siyasətini tam qabarıqlığı ilə əks etdirən sağlam dini-mənəvi durumun təzahürüdür.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***